**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**

imtahan iştirakçısının

# YADDAŞ KİTABÇASI

(xarici dil üzrə fəlsəfə doktoru imtahanı)

Aşağıdakıları imtahana gətirmək qadağandır:



2026

## İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:

1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin (bina haqqında məlumat imtahana buraxılış vərəqənizdə göstərilmişdir).
2. **İmtahana aşağıdakı sənədləri gətirin:**
   - **şəxsiyyəti təsdiq edən sənəd** (Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər icazə vəsiqələrini və pasportlarını, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri isə qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini);
   - **imtahana buraxılış vərəqəsini.**
3. **İmtahan iştirakçısı aşağıdakı hallarda imtahana buraxılmır:**
   - tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
   - saxta sənəd təqdim etdikdə;
   - imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmışdan gec gəldikdə;
   - imtahana sərxoş vəziyyətdə gəldikdə;
   - imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.
4. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.
5. İmtahan zalında texniki qurğularla (monitor, klaviatura, qulaqlıq və s.) ehtiyatlı davranın.

## İMTAHAN İŞTİRAKÇISININ İMTAHAN ZALINDA GÖRƏCƏYİ İŞLƏR:

**1.** İmtahan zalına daxil olarkən sənədlərinizi təqdim edin və qeydiyyatdan keçin.
**2.** İmtahan zalında sizin üçün ayrılmış kompüterin qarşısında əyləşin və ekrandakı göstərişləri diqqətlə izləyin.
**3.** Ekrandakı şəxsi məlumatların düzgün qeyd olunduğunu diqqətlə yoxlayın. Hər hansı bir uyğunsuzluq aşkar etdikdə zal nəzarətçisinə müraciət edin.
**4.** İmtahan proqramının istifadəsi və imtahan qaydaları ilə tanış olmaq üçün ayrılan vaxt tamamlandıqdan sonra imtahan başlanır.
**5.** İmtahanda iştirakçıların doktoranturaya və dissertanturaya xarici dil üzrə qəbul və xarici dil fənni üzrə fəlsəfə doktoru imtahanı çərçivəsində dinləyib-anlama, oxuyub-anlama və yazı bacarıqları, habelə dil qaydalarına dair bilikləri yoxlanılır.
**6.** **İmtahanın müddəti 3 saatdır.** İmtahan vaxtının **ilk 1 saat 30 dəqiqəsi** test tapşırıqlarının cavablandırılmasına, növbəti **1 saat 30 dəqiqəsi** isə **yazı işinin (esse və vizual məlumatın yazılı təsviri) yerinə yetirilməsinə** ayrılır.
**7.** İmtahanın başlanması elan edilən andan test tapşırıqlarının cavablandırılması üçün ayrılan vaxtdan səmərəli istifadə edin. Cavabların qeyd olunması üçün sərf olunan vaxt da bu müddətə daxildir.
**8.** Sizə əvvəlcə **30 test tapşırığı** təqdim olunur. Test tapşırıqları aşağıdakı ardıcıllıqla verilir: 1-25-ci tapşırıqlar qapalı formalı *(o cümlədən 1-10-cu tapşırıqlar - dinləyib-anlama bacarığını yoxlayan 1 monoloq və 1 dialoq əsasında təqdim olunan tapşırıqlar, 11-20-ci tapşırıqlar - dil qaydalarından istifadəyə (leksik-qrammatik) dair mətn əsasında təqdim olunan tapşırıqlar, 21-25-ci tapşırıqlar - oxuyub-anlamaya dair birinci mətn üzrə təqdim olunan tapşırıqlar),* 26-30-cı tapşırıqlar isə oxuyub-anlamaya dair ikinci mətn üzrə uyğunluğun müəyyən edilməsini tələb edən qapalı tipli test tapşırıqlarıdır.
**9.** **1-25 saylı qapalı formalı test tapşırıqlarının** hər birinə verilmiş 4 cavabdan (A, B, C, D) düzgün hesab etdiyiniz bir cavabı qeyd edin.
**10.** Oxuyub-anlamaya dair ikinci mətnin sonunda sizə altı fikir (A, B, C, D, E, F hərfləri ilə göstərilən) təqdim olunur. Bu fikirlərdən biri mətnə uyğun deyildir. Mətndə nömrələrlə işarələnmiş **(26, 27, 28, 29, 30)** boşluqlara uyğun olan cavabı (hərflə verilmiş variantı) qeyd edir və hər bir sual nömrəsi üçün seçdiyi cavab bəndini sualın nömrəsinə uyğun sırada qeyd edin.
**11.** "İmtahan başlandı" elan edildiyi anda dinləmə mətninin səsləndirildiyi audioqurğu işə salınır. Qurğudakı dinləmə mətninin olduğu audiofayl səsləndirilən zaman audiotəlimatçı öncə Sizə *birinci* dinləmə mətni *(monoloq)* üzrə təqdim olunan (1-5-ci) tapşırıqlarla tanış olmaq üçün 2 dəqiqə vaxt verir. Mətnin

*(monoloqun)* ilk dəfə səsləndirilməsindən sonra audiotəlimatçı Sizə bu mətnə dair tapşırıqlarla bir daha tanış olmaq üçün yenə 2 dəqiqə vaxt verir. Sonra mətn ikinci dəfə səsləndirilir. Bundan sonra həmin mətn üzrə tapşırıqları cavablandırmaq üçün daha 8 dəqiqə vaxt verilir. Bu vaxt qurtardıqdan sonra audiotəlimatçı *ikinci* dinləmə mətni *(dialoq)* üzrə təqdim olunan (6-10-cu) tapşırıqlarla tanış olmaq üçün 2 dəqiqə vaxt verir. Bundan sonra *ikinci* dinləmə mətni *(dialoq)* ilk dəfə səsləndirilir. Mətnin *(dialoqun)* ilk dəfə səsləndirilməsindən sonra audiotəlimatçı Sizə bu mətnə dair tapşırıqlarla bir daha tanış olmaq üçün yenə 2 dəqiqə vaxt verir. Sonra mətn *(dialoq)* ikinci dəfə səsləndirilir. Bundan sonra qalan vaxt ərzində Siz həm dinləmə mətnləri üzrə təqdim olunan tapşırıqları, həm də digər tapşırıqları cavablandırırsınız.

| Dinləmə mətninin növü | Tapşırıqlarla tanışlıq üçün vaxt | Mətnin ilk dəfə səsləndirilməsi | Tapşırıqlarla yenidən tanışlıq üçün vaxt | Mətnin ikinci dəfə səsləndirilməsi | Cavablandırma üçün ayrılan vaxt / Qalan vaxt |
|---|---|---|---|---|---|
| Birinci dinləmə mətni (monoloq) | 1–5-ci tapşırıqlarla tanışlıq üçün 2 dəqiqə | Monoloq ilk dəfə səsləndirilir | 1–5-ci tapşırıqlarla yenidən tanışlıq üçün 2 dəqiqə | Monoloq ikinci dəfə səsləndirilir | Bu tapşırıqlar üzrə cavablandırma üçün 8 dəqiqə |
| İkinci dinləmə mətni (dialoq) | 6–10-cu tapşırıqlarla tanışlıq üçün 2 dəqiqə | Dialoq ilk dəfə səsləndirilir | 6–10-cu tapşırıqlarla yenidən tanışlıq üçün 2 dəqiqə | Dialoq ikinci dəfə səsləndirilir | Qalan vaxt ərzində həm dinləmə mətnləri üzrə, həm də digər sualları cavablandırmaq |

**DİQQƏT!** Dinləmə mətnlərinin zalda 2 dəfədən az və ya 2 dəfədən çox səsləndirilməsi qadağandır.

**12.** Test tapşırıqları üzrə toplanıla biləcək maksimal bal 30-a bərabərdir. Hər bir sualın düzgün cavabı bir balla qiymətləndirilir. Səhv cavablar ümumi nəticəyə təsir göstərmir.

**13.** Test tapşırıqlarının cavablandırılmasına ayrılan 1 saat 30 dəqiqə vaxt başa çatdıqdan və ya test mərhələsini *"İmtahanın sonu"* düyməsini sıxmaqla yekunlaşdırdıqdan sonra *"Esse"* düyməsini sıxaraq yazı işi mərhələsinə başlayırsınız. Bu mərhələdə sizə təqdim olunan 2 sərbəst mövzudan birini seçərək xarici dildə 200–250 sözdən ibarət esse yazmalı, həmçinin təqdim olunan vizual məlumatı 150–180 sözdən ibarət yazıda təsvir etməlisiniz.

**14.** Yazı işi şərti kodlar əsasında anonim şəkildə yoxlanıldığından, özünüzü tanıtmaq məqsədilə hər hansı qeyd aparmaq, işarə qoymaq, eləcə də özünüz, yaxınlarınız, müəllimləriniz və digər şəxslər haqqında məlumat yazmaq qadağandır.

**15.** Esse yazısı və vizual məlumatın yazılı təsviri maksimum 10 balla qiymətləndirilir.

**16. "İmtahan başlandı" elan olunan andan 30 dəqiqə müddət keçənədək imtahandan çıxmağa icazə verilmir.**

**DİQQƏT!**

- Başqasının cavablarını köçürməyin. Özünüz də diqqətli olun ki, Sizin cavablarınızı heç kim köçürməsin. Nəticələriniz yoxlanarkən xüsusi araşdırma zamanı köçürmə faktı aşkar edilərsə, imtahan nəticələriniz ləğv olunacaqdır.

## İMTAHAN İŞTİRAKÇISINA QADAĞANDIR:

1. İştirakçı imtahan zamanı aşağıda göstərilən qadağalara əməl etmədikdə o, imtahandan xaric olunur və onun imtahan nəticələri ləğv olunur:

- saxta sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, çanta, məlumat kitabçası, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

**DİQQƏT!** İştirakçı imtahana qadağan edilmiş vasitə, vəsait və ya əşya gətirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.

**DİQQƏT!** Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.

- imtahan binasına yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla daxil olmaq, yemək, içki, tütün məmulatları gətirmək;

**DİQQƏT!** Elektron imtahan zamanı kompüter avadanlığının zədələnməsi riskinin qarşısını almaq məqsədilə namizədlərin imtahan binasına (zala) su və digər maye məhsullar gətirməsi qadağandır. Zərurət olduqda namizədlər içməli su ilə təmin olunur.

- imtahan başlandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq, danışmaq, kiməsə kömək etmək və ya kiminsə köməyindən istifadə etmək və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqası üçün ayrılmış kompüterə baxmaq və ya öz kompüterinə başqasının baxmasına şərait yaratmaq;
- imtahan suallarını kağız, elektron və ya başqa hər hansı bir vasitə ilə imtahan zalından çıxartmaq;
- “imtahan başlandı” elan olunan andan etibarən **30 dəqiqə müddət keçənədək səbəbindən asılı olmayaraq imtahan zalından çıxmaq;**
- nəzarətçiyə tapşırıqların həllində kömək üçün müraciət etmək;

2. İmtahan iştirakçısı imtahandan sonra aşağıda göstərilən qadağaya əməl etmədikdə, onun imtahan nəticələri ləğv edilir və barəsində zəruri inzibati və hüquqi tədbirlər görülür:

   - imtahan suallarını çap etmək, tirajlamaq, yaymaq, sosial şəbəkələrdə paylaşmaq və ya bu halların yaranmasına səbəb olmaq.

Əgər imtahan zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq nəzarətçiyə müraciət edin, nəzarətçi lazımi ölçü götürməzsə, imtahan rəhbərinin və ya DİM nümayəndəsinin zala gəlməsini tələb edin.

Zal nəzarətçiləri qeyri-fənn müəllimləridir. Onların vəzifəsi imtahanın gedişi zamanı nizam-intizam yaratmaqdır. İmtahanın başlandığı elan edildikdən sonra sizin onlara sual verməniz, onların sizə yaxınlaşıb hər hansı bir məlumat almaq üçün müraciət etməsi imtahan qaydalarına ziddir.

Nəzarətçi müəllimlərin fəaliyyəti imtahan prosesinin tələblərinə uyğun olmazsa, bu barədə imtahan rəhbəri zala gəldikdə ona məlumat verin. İmtahan binasından çıxdıqdan sonra imtahanın gedişi ilə əlaqədar şikayətlərə baxılmayacaqdır.

***Sizə müvəffəqiyyətlər arzulayırıq!***